**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ÇAĞDAŞ AZƏRBAYCAN DRAMATURGİYASININ İNKİŞAF MEYİLLƏRİ (1990–2010-cu illər)

İxtisas: 5716.01– Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **İlkiyyə Şəkər qızı Hacıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Xəzər Universitetinin "Dillər və ədəbiyyatlar" departamentində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Bədirxan Balaca oğlu Əhmədov**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
**Tehran Əlişan oğlu Mustafayev**

filologiya elmləri doktoru, professor
**Leyla Məcid qızı İmaməliyeva**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Məti Osman oğlu Bayramlı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
________________ **İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
________________ **İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
________________ **İmamverdi Yavər oğlu Həmidov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Azərbaycan ədəbiyyatının bu mərhələsi böyük tarixə malik müstəqil dramaturgiyanın inkişafı ilə şərtlənir. Ötən əsrin əvvəllərində olduğu kimi, sonunda da xalqın ictimai-siyasi mübarizəsi müstəqilliyin əldə edilməsi ilə nəticələnir. Baş verən ictimai-siyasi hadisələr şüurda və təfəkkürdə əsaslı dəyişikliklər yaradır. Ədəbiyyat ictimai şüurun formalaşmasında yaxından iştirak edir, ictimai-siyasi hadisələr də ədəbi prosesə təsirsiz qalmır. Siyasi kataklizmlər ədəbi prosesi yönləndirən, istiqamətləndirən amillərdən biri olur. 80-ci illərin ikinci yarısından başlayan bu proses 90-cı illərin ortalarına qədər davam edir. Bu dövr yalnız Sovetlərin siyasi süqutu ilə məhdudlaşmır, milli müstəqillik yolunda yeni bir siyasi sistemi, dövlət quruluşu və idarəetmənin yaranması zərurətini də ortaya çıxarır. Bu mərhələdə Qarabağ müharibəsi fonunda bədii sözün təsir gücü nisbətən azalır, ictimai-siyasi publisistika önə keçir. Yazılan bədii əsərlərdə belə publisistik ton aparıcı olur. Təkcə dramaturgiyanın deyil, ümumiyyətlə, ədəbi fikrin öz zəminindən qoparaq yeni bir mühitdə fəaliyyəti ağrısız ötüşmür, hadisələrə, insanlara, tarixə münasibət dəyişir. Bütün bunlar digər ədəbi janrlar kimi dramaturgiyanı da yeni bir sferaya daxil edir. Hər şeydən əvvəl, dramaturgiya əvvəlki sxematimzdən və durğunluqdan qurtularaq yeni bir ədəbi-estetik məkana daxil oldu; bu məkanda həyata, gerçəkliyə, hadisələrə, bütövlükdə cəmiyyətə sosialist baxış deyil, müstəqil münasibət əsas oldu, yeni, mütəhərrik yaradıcılıq atmosferi hökm sürdü. Bu mərhələdə ədəbi proses ictimai-siyasi hadisələrin təsiri altında inkişaf edir və keçid dövrünün anomaliyaları dramaturgiyaya da, teatra da bu və ya digər şəkildə öz təsirini göstərir. Mövzu və problematika məhdudluğu, yeni bir dramaturji konsepsiyanın formalaşması, siyasi publisistikaçılıq, patetika və s. kimi keyfiyyətlər dramaturgiyanın əsas xüsusiyyətinə çevrilir. 2000-ci ilin əvvəlindən başlayıb bu gün də davam edən yeni inkişaf xətti dramaturgiyanı bir çox parametrlər baxımından zənginləşdirir. Bu mərhələni şərtləndirən əsas faktorlardan biri dramaturgiyanın infrastrukturu, konsepsiyası, mövzu və problematikasının dəyişməsi, yeniləşməsi və yeni qüvvələrin

gəlməsidir. Eyni zamanda, bu dövrdə milli dramaturgiya dünya dramaturgiyasına daha çox inteqrasiya edir, modernist və postmodernist elementlərlə zənginləşir və yeniləşir. Mənəvi-əxlaqi həyat tərzi, müasirlərimizin düşüncələri, ictimai və subyektiv amillər, vətəndaşlıq düşüncəsi, mürəkkəb ictimai-siyasi hadisələr, mənəvi-ideoloji boşluqlar, qlobal hadisələr və s. çağdaş dramaturgiyanın mövzu xəritəsinin kiçik bir hissəsidir. Tarixi mövzu da dramaturji mətnlərdən yan keçməmişdir; belə demək mümkünsə, Sovetlər dönəmində rəsmi və qeyri-rəsmi qadağan olunmuş tarixi mövzulara müraciət edilərək tarixi həqiqətlər işlənilmişdir.

Müstəqillik dövründə dramaturgiyanın inkişafı onu yeni bir mərhələ kimi səciyyələndirməyə imkan verir. Ədəbi prosesin tərkib hissələrindən biri kimi dramaturgiya və teatr bir neçə mərhələdən keçərək janr, struktur, obraz, mövzu və problematika baxımından əsaslı şəkildə dəyişmişdir. Dramaturgiyada ənənəvi təmayül ilə birlikdə yenilikçi istiqamət də yaranmış, yeni dramaturji mətnlər yazılmış, həm də bu ədəbi növə yeni qüvvələr gəlmiş, fərqli dramaturji meyillər və "izm"lər ortaya çıxmışdır. Bu dövrdə dramaturgiyaya həm sovet dövründə yazıb yaradanlar (İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, Elçin, Rəhman Əlizadə və b.), həm də, belə demək mümkünsə, yeni qüvvələr (Firuz Mustafa, Əli Əmirli, Kamal Abdulla, Vaqif Səmədoğlu, Afaq Məsud, Ağarəhim Rəhimov, Elçin Hüseynbəyli, Aygün Həsənoğlu, Hüseynbala Mirələmov, Qan Turalı və b.) müraciət etmişlər. Sonuncular məhz müstəqillik dövrünün dramaturqlarıdır və onların bu mərhələdə yazdığı dramaturji mətnlər çağdaş Azərbaycan dramaturgiyasının inkişaf meyillərinin müxtəlifliyini bütünlüklə özündə ehtiva edir. Çağdaş dramaturgiyamız bütün komponentləri (mövzu-problem əlaqələri, konfliktin bədii həlli, personaj orijinallığı, janr və forma zənginliyi, remarka yeniliyi, mövzu rənagarəngliyi, müasirliyi və tarixiliyi, qəhrəman axtarışları, estetik prinsipləri və s.) ilə yenidir.

Çağdaş Azərbaycan dramaturgiyasının strukturu və janr poetikasının modern və postmodern mahiyyəti dramaturgiyada yeni mərhələnin başlanğıcından xəbər verir. Dramaturgiyanın sosrealizmdən kənar müstəqil inkişafı dramaturji konfliktlərin bədii həlli imkanlarını da genişləndirmiş, dramaturqların sosrealizmin

"Axilles dabanı" "final" problemini həll etmişdir.

Çağdaş dramaturgiya ədəbi prosesin bir tərkib hissəsi kimi ədəbi tənqidin əsas təhlil problemlərindən olmuşdur. Lakin digər ədəbi növlərdən (lirik, epik) fərqli olaraq, dramaturgiyanın təhlilinə az yer ayrılmışdır. Tənqidçilərdən Aydın Dadaşov[1], Aydın Talıbzadə[2], Məryəm Əlizadə[3], Vaqif Yusifli[4], Bədirxan Əhmədov[5], Aynurə Mustafayeva[6] və başqalarının məqalələrində dramaturji mətnlər təhlil edilmişdir. Bu istiqamətdə A.Dadaşovun[7] və B.Əhmədlinin[8] və başqalarının monoqrafiyaları nəşr edilmişdir. Bununla belə, çağdaş dramaturgiyanın inkişaf meyilləri və istiqamətləri dissertasiya işi səviyyəsində tədqiq edilməmiş, ayrıca bir tədqiqat əsəri yazılmamışdır.

**Tədqiqatın obyekti və predmeti:** Dissertasiya işinin başlıca araşdırma obyektini İlyas Əfəndiyevin, Bəxtiyar Vahabzadənin yaradıcılığının son dövrü, Elçin, Firuz Mustafa, Əli Əmirli, Rəhman Əlizadə, Vaqif Səmədoğlu, Afaq Məsud, Elçin Hüseynbəyli,

---

[1] Dadaşov, A. İki pyesin fərqli modeli (I yazı) // 525-ci qəzet. –2013,11 may. – s. 28; Dadaşov, A. İki pyesin fərqli modeli (II yazı) // 525-ci qəzet. – 2013, 18 may. – s. 28; Dadaşov, A. Dramaturgiya // Bakı: Ədəbi proses 2013, – 2014. – s. 120-160.

[2] Talıbzadə, A. Azərbaycanlıların müstəqillik sərgüzəştləri // Bakı:Tənqid.net. – 2011. – №1 (8). – s. 119-139; Talıbzadə, A. El üçün yaşamış Elçin və ya Bakı-Buzovna marşrutunun ədəbi şedevrləri //Bakı:Tənqid.net. – 2013. №10 – s. 324-332.

[3] Əlizadə, M. Əlahəzrət teatrın tərənnümçüsü // Bakı: Tənqid.net. –2013. №10 –s. 318-324; Əlizadə, M. Elçin fenomeninin Azərbaycan milli teatr prosesinə təsiri (Ön söz əvəzi). Elçin. Pyeslər/ M.Əlizadə. – Bakı: Çaşıoğlu, – 2012. –s. 3-26.

[4] Yusifli, V. Həyat səhnədir, insanlar aktyor, dünya tamaşa (Dramaturgiyamız haqqında düşüncələr), I məqalə // 525-ci qəzet.– 2002, 30 yanvar. – s. 14.

[5] Əhmədov, B. Milli dramaturgiyanın Elçin mərhələsi//Bakı:Tənqid.net. – 2013. №10,– s. 308-317.

[6] Mustafayeva, A. Dramaturgiya-2014 //Bakı: Ədəbi proses–2014, –2015. – s. 188-196.

[7] Dadaşov, A. Ekran dramaturgiyası / A.Dadaşov. –Bakı: Maarif, –1999. –224 s.; Dadaşov, A. Çağdaş Azərbaycan dramaturgiyası /A.Dadaşov. –Bakı: Elm və təhsil, –2012. – 304 s.

[8] Əhmədli, B. Dramaturq: sənət və həqiqət (A.Rəhimov dramaturgiyasında poetika məsələləri). / B.Əhmədli. – Bakı: BQU, – 2011. – 231 s.

Ağarəhim Rəhimov, Hüseynbala Mirələmov və başqalarının dram əsərləri təşkil edir. Respublikanın ədəbi, bədii dərgilərində nəşr olunan dram əsərlərinin ən yaxşı nümunələrinin təşəkkül meyilləri baxımından araşdırılması, onların elmi-nəzəri cəhətdən təsnifatlaşdırılması və dəyərləndirilməsi tədqiqat obyektinə daxildir. Dissertasiya işində çağdaş dramaturgiyanın ayrı-ayrı problemlərinə həsr olunmuş tənqidi, ədəbi-nəzəri qaynaqlara da istinadlar olunmuş, yeri gəldikcə onlardan bəhrələnilmişdir.

Tədqiqatın predmeti isə dramaturgiyanın inkişaf problemləri (mövzu, problematika, janr, forma zənginliyi və müxtəlifliyi, yeni meyillər, qəhrəman problemi, tarixilik, müasirlik, modern və postmodern təmayüllər və s.) və onu səciyyələndirən məsələlərdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi çağdaş dövr Azərbaycan dramaturgiyasının inkişaf meyillərini elmi, nəzəri və praktik baxımdan araşdırmaq, müəyyən təsnifatlar aparmaq və çağdaş ədəbiyyat tarixində tutduğu yerini, mövqeyini müəyyənləşdirməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün əsas etibarilə aşağıdakı vəzifələrin yerinə yetirilməsinə çalışılmışdır:

– çağdaş dramaturgiyanın ədəbi prosesdə rolunu və mövqeyini aydınlaşdırmaq;

– çağdaş dövrdə dramatik əsərləri mövzu və problematika baxımından araşdırmaq;

– ədəbi tənqidin dramaturgiyanın problemləri ilə bağlı dəyərləndirmələrinə münasibət bildirmək;

– çağdaş dramaturgiyanın janr poetikası baxımından təsnifatını aparmaq və təhlil etmək;

– çağdaş dramatik əsərləri mənəvi-əxlaqi, sosial dəyərlər kontekstində təhlilə cəlb etmək;

– janrın mövcud örnəklərini insan və cəmiyyət kontekstində araşdırma obyektinə çevirmək;

– çağdaş dramaturgiyanı tarixilik və müasirlik baxımından təhlil etmək;

– çağdaş dramaturgiyada modernist və postmodernist meyilləri aşkara çıxarmaq və tədqiqata cəlb etmək;

**Tədqiqatın metodları:** Tədqiqat işi müasir ədəbiyyatşünaslığın mühüm elmi-nəzəri prinsipləri nəzərə alınmaqla yazılmışdır. Mövzu

araşdırılarkən sistemli təhlil üsulları, müqayisəli tarixi metod, sistemlilik, şərh, təhlil, müqayisəli təhlil, tənqidi təhlil, həmçinin çağdaş dövr dramaturgiyasının inkişaf meyillərinin sistemli araşdırılmasında tipoloji və fərqli yanaşma üsulları əsas götürülmüşdür. Eyni zamanda əsərin yazılmasında tarixilik metodoloji prinsipə və müqayisəli təhlil metoduna da üstünlük verilmişdir. Tədqiqatın yazılmasında çağdaş ədəbiyyatşünaslığın və tənqidin nəzəri-estetik prinsipləri başlıca çıxış nöqtəsi olaraq götürülmüş, dramaturgiyaya aid anoloji tədqiqatların təcrübə və nəticələrindən istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Sosializm realizmindən sonra yeni mərhələdə çağdaş dramaturgiyanın keçdiyi yol, inkişaf meyilləri və istiqamətləri ilə bağlı fundamental araşdırma aparılması, zəngin faktlarla əsaslandırılması;

– Ənənə və novatorluğun yeni dövr dramaturgiyası ilə müqayisəsi;

– Çağdaş dövrdə dramaturgiyanın ümumi inkişaf qanunauyğunluqları və teatrla əlaqəsi məsələsi;

– Dramaturgiyanın inkişaf mərhələsində yeni nəsil dramaturqların bu ədəbi növə gəlişi və üslub zənginliyi;

– Çağdaş dramaturgiyada modern üsullardan istifadə, janr və forma müxtəlifliyi məsələsi;

– Dramaturgiyada sosial-mənəvi və əxlaqi problemlər;

– Müstəqillik dövrü dramaturgiyasında fərd və cəmiyyət problemi;

– Çağdaş dövr dramaturgiyasında tarixilik və müasirlik problemi;

– Dramaturji mətnlərdə modernist və postmodernist meyillərin inikası.

**Tədqiqatın elmi yeniliyi:** Bu tədqiqat işinin elmi yeniliyi ilk öncə çağdaş Azərbaycan dramaturgiyasının inkişaf meyillərinin kompleks şəkildə öyrənilməsi və dissertasiya işi səviyyəsində tədqiqata cəlb edilən ilk təşəbbüslərdən biri olması ilə əlaqədardır. Dissertasiya işinin elmi yeniliyi öz əksini konkret müddəalarda tapır:

– Azərbaycan ədəbiyyatı tarixində müasir dövr dramaturgiyasının inkişaf istiqamətləri zəngin ədəbiyyat və mənbələr

əsasında araşdırılmış, faktlar analiz edilmiş, sistemləşdirilmiş və ümumiləşdirilərək nəticələri müəyyən edilmişdir;

– Tədqiqat işində Azərbaycan dramaturgiyasının inkişaf meyilləri və istiqamətləri Azərbaycan ədəbi, elmi, nəzəri fikrində ilk dəfə kompleks şəkildə dissertasiya işi səviyyəsində tədqiqat obyekti olmuşdur;

– Bütövlükdə bu dramaturji mətnlər elmi-nəzəri cəhətdən sistemləşdirilmiş, dəyərləndirilmiş, istiqamətləri müəyyənləşdirilmiş və onun qarşısında duran inkişaf meyilləri sistemli şəkildə tədqiq edilmişdir;

–Tədqiqat işimizdə çağdaş dövr dramaturgiyasının janr poetikası araşdırılmış və müəlliflərə əsasən bu dövrdə yazılan dramaturji əsərlərin janrları təsnif edilmişdir;

–Çağdaş dövr dram əsərlərinin süjet xətti boyunca ortaya çıxan sosial-mənəvi problemlər, insan və cəmiyyət problemi yeni dramaturji həll kontekstində araşdırılmışdır;

– Tarixi mövzuda yazılan dramaturji mətnlərdə tarixiliklə müasirliyin vəhdəti problemi araşdırılmışdır;

–Modernist və postmodernist elementlərin çağdaş dramaturji mətnlərdə nə dərəcədə özünü göstərməsi həm əsərlərdə, həm də dövri mətbuatda izlənilmişdir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti:** Tədqiqat işi nəzəri-kulturoloji, ədəbi-elmi irsə yanaşmada çağdaş Azərbaycan dramaturji mətnlərinə əsaslanır.

Dissertasiya işi məsələnin qoyuluşu, araşdırma problemləri, metodoloji aspekti, nəzəri yanaşma və araşdırma formulları baxımından, ümumən, dramaturgiya və teatrla bağlı tədqiqatlar üçün elmi-nəzəri əhəmiyyət daşıya bilər.

Dissertasiya həm də praktik əhəmiyyətə malikdir. Belə ki, tədqiqatda konkret olaraq çağdaş dövr Azərbaycan dramaturgiyasının inkişaf meyilləri tədqiq edilsə də, burada, ümumən, dramaturgiyanın qaynaqları, inkişaf tarixi, ənənə və yenilikçilik məsələləri, nəzəri problemlər, ümumi inkişaf qanunauyğunluqları barədə də ümumiləşdirmələr aparılmışdır. Dissertasiya işinin əsas müddəaları, dəyərləndirmələri və nəticələri aşağıdakı hallarda tətbiq və istifadə edilə bilər:

–dramaturgiya tədqiqatçılarının araşdırmalarında və monoqrafiyaların tərtibində;

– teatr, ədəbi tənqid və ədəbiyyatşünaslıq, dram nəzəriyyəsi və s. məsələlərə həsr edilmiş araşdırmalarda;

– müxtəlif ali məktəblərin filologiya, teatr, sənətşünaslıq fakültələrinin bakalavr, magistr pillələrinin ümumi və xüsusi kurslarının tədrisində;

– filologiya, teatr, sənətşünaslıq fakültələrinin proqram, dərslik və dərs vəsaitlərinin tərtibində.

**Aprobasiyası və tətbiqi:** Dissertasiya işinin mövzusu AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin nəzdində fəaliyyət göstərən Problem Şurasında 13 fevral 2014-cü il tarixində təsdiq olunmuşdur. Tədqiqat işinin ayrı-ayrı fəsilləri müxtəlif vaxtlarda Xəzər Universitetinin "Dillər və ədəbiyyatlar" departamentində müzakirə edilərək qəbul edilmişdir. Dissertasiya işinin mövzusu ilə bağlı iddiaçının məqalə, tezis və əsas müddəaları Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, eləcə də beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan dövri elmi nəşrlərdə, xarici ölkələrdə elmi məcmuə, jurnal və toplularda, beynəlxalq və respublika elmi konfranslarında məruzə edilib çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat:** Tədqiqat işinin mövzusu AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin nəzdində fəaliyyət göstərən Problem Şurasında təsdiq olunduqdan sonra Azərbaycan Respublikası Təhsil Nazirliyi Xəzər Universitetinin "Dillər və ədəbiyyatlar" departamentində hazırlanaraq yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrı-ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya "Giriş", hər biri iki paraqrafa bölünməklə üç fəsil, "Nəticə" və "İstifadə edilmiş ədəbiyyat" siyahısından ibarətdir. Dissertasiyanın "Giriş" 14.663, I Fəsil 81.963, II Fəsil 78.521, III Fəsil 101.485, "Nəticə" hissəsi isə 7.152 olmaqla, işarə ilə işin ümumi həcmi 283.784 şərti işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində AAK-ın tələblərinə uyğun olaraq, mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiya və tətbiqi, yerinə yetirildiyi təşkilat, həcmi müəyyən olunmuşdur.

**"Çağdaş dramaturgiyanın xarakteri və əsas inkişaf istiqamətləri"** adlı I fəsil iki paraqrafdan ibarətdir. "**Dramaturgiya yeni inkişaf mərhələsində"** adlı I paraqrafda müstəqillik dövrü yeni mərhələ kontekstində araşdırılır. Göstərilir ki, bütün dövrlərdə dramaturgiya və teatrın kökündə maarifçilik missiyası durur, zaman keçdikcə bu missiya formaca dəyişsə də, inkişaf edir və yeniləşir. Dramaturq Bertold Brext teatrın iki funksiyasının (əyləncə və ibrətlilik) olduğunu yazırdı: *"Avropada teatrın inkişafına müəyyən xidmətlər göstərən maarifçilik dövrü əyləncə ilə ibrətamizlik arasında heç bir fərqi görmürdü. Əgər indi bizim dövrün teatrına baxsaq, görərik ki, dram və teatrın hər iki elementi getdikcə biri o birindən kəskin surətdə fərqlənir və müəyyən məqamlarda konfliktlər yaşayırlar"*[9]. Burada ibrətliliyin kökündə maarifçilik funksiyası gizlənirdi. Azərbaycan dramaturgiyası və teatrı ilk addımlarını məhz ibrətamizlik, maarifçilik kontekstində atmış və bu xüsusiyyət heç zaman onu tərk etməmişdir. Maarifçi və realist Mirzə Fətəli Axundzadənin komediya janrına müraciət etməsi də maarifçilik estetikasından irəli gəlirdi və mahiyyət baxımından bu funsiyanı yerinə yetirirdi. Zaman-zaman maarifçiliyin formaları dəyişsə də, məzmunu bir-birini davam etdirmiş və tamamlamışdır.

Müstəqillik dövründə ideoloji sistemin çökməsindən sonra müəyyən bir boşluq yaranmışdı. Professor Qorxmaz Quliyev 90-cı illərdə yaranan bu boşluğu sənətkarın ideoloji cəhətdən obrazlı şəkildə "yetim" qalması ilə müqayisə edir: *"90-cı illərin əvvəllərində formalaşan bu nə isə son dərəcə qeyri-müəyyən və dumanlı idi: xalqın ekzistensial problemlərindən doğmasına*

---

[9] Bertold, B. Eksperimental teatr haqqında // Ədəbiyyat qəzeti. –2016, 23 iyul. –s. 30.

*baxmayaraq, hələ struktur bütövlüyü kəsb etməyən və buna görə bütün xalqın dərd-sərini, arzu və istəklərini ehtiva edən bir konsepsiyaya çevrilmək uzaq bir ideologiyavari şeyi, elə yarandığı gündən cilalamaq, son dərəcə xırda özəl məqsədlərdən ötrü dağıtmağa başladılar"*[10]. Elnarə Akimova da bu fikirdədir ki: *"Müstəqillik kimi tarixi nailiyyətimiz və bir-birinin ardınca baş verən gərginlik, kataklik proseslər– 90-cı illəri ilkin olaraq səciyyələndirən bu iki amildir"*[11]. Bunun başlıca səbəbi ictimai-siyasi proseslərin sürətlə dəyişməsi və yeni cəmiyyət quruculuğu axtarışları olmuşdur.

Bu dövrdə yenə də dramaturgiyaya yazıçılar müraciət edirdi, necə deyərlər, dramaturgiya yazıçılara borclu qalırdı. Mehdi Hüseyn, İlyas Əfəndiyev, Anar, Elçin də dramaturgiyaya nəsrdən gəlmişdilər. Eyni proses 90-cı illər dramaturgiyası üçün də xarakterikdir: Firuz Mustafa, Əli Əmirli, Kamal Abdulla, Afaq Məsud, Ağarəhim Rəhimov, Hüseynbala Mirələmov və b. dramaturgiyaya nəsrdən gəldilər.

Çağdaş dramaturgiyanın inkişafını şərtləndirən amillərdən biri də əsərlərin ölkədən kənarda səhnə həyatı görməsidir. Sovet dövründəkindən fərqli olaraq, indi bu coğrafiya bir qədər genişlənmişdir. Elçin və F.Mustafanın əsərləri dünyanın müxtəlif səhnələrində tamaşaya qoyulmuşdur. Professor B.Əhmədlinin fikrincə, "*Firuz Mustafa və Elçin daramaturgiyası, demək olar, milli teatrı tənəzzüldən çıxarmış və dövrün ədəbi faktına çevirmişdir"*[12].

Ümumiyyətlə, zaman etibarilə təxminən otuz ili əhatə edən bu mərhələdə dramaturgiyanın inkişafında bir çox dramaturji meyillər və yaradıcılıq tendensiyası özünü göstərir. İlk dəfə olaraq, dramaturgiya sosrealizm çərçivəsindən tamamilə kənara çıxır, yeni cəmiyyət hadisələrini əks etdirir, dramaturji konflikt, dialoq və

---

[10]Quliyev, Q. Xüsusidən ümumiyə (məqalələr toplusu)/ Bakı:Elm və təhsil, –2016, – s.33.

[11] Akimova, E. Yeni təfəkkür və ədəbi tənqid / E.Akimov. –Bakı: MBM, –2013, –s. 175.

[12] Əhmədli, B. Çağdaş ədəbiyyatımızın görkəmli siması:[Elekton resurs]/– Bakı, 27 aprel, 2022. URL: https://edebiyyatqazeti.az/news/edebi-tenqid/8803-

monoloqlar yazılır. Dramaturgiyada olduğu kimi, teatrda da yeniləşmə gedir.

Tədqiqatın II paraqrafı **“Dramaturgiyanın janr müxtəlifliyi və zənginliyi**” adlanır. Müstəqillik dövrü Azərbaycan dramaturgiyasının səciyyəvi xüsusiyyətlərindən biri janr poetikasının zənginliyi və müxtəlifliyidir. Belə ki, əgər klassik milli dramaturgiya komediya, faciə, dram və pyeslərlə (bəzən də tragikomediya C.Məmmədquluzadə) çıxış edirdisə, çağdaş dramaturgiyanın janr, forma müxtəlifliyi daha zəngin və çoxçalarlı olur. Başqa sözlə, indi dramaturgiya daha əvvəlki çərçivəsinə sığışmır, yeni səhnə dizaynı, qəliblər, çərçivələr, formalar axtarışındadır. Hər halda, görünən odur ki, çağdaş dramaturgiya nümunələri janr və forma zənginliyi ilə əvvəlki dramaturgiyadan kəskin şəkildə fərqlənir. Rus rejissoru Q.A.Tovstonoqov janr müxtəlifliyinin teatr üçün önəmli olması ilə bağlı yazır: *"Nədir janr? Mən bunu tələbələrimə aydınlaşdırarkən, sadəcə deyirəm, bax, budur predmet, biz isə onu göstərməliyik. Gəlin bu predmeti güzgüdə tərsinə göstərək. Əgər biz adi güzgü götürüb onu predmetin qarşısına tutsaq, biz həmin predmetin təkrarını görəcəyik, lakin əks rakursda. Yox, əgər adi güzgüdə yox, linzada baxmış olsaq, başqa bir effekt alınacaq"*[13]. Rejissor bununla janrların hamısının həyatı, gerçəkliyi başqa-başqa prizmadan təsvir etdiyini göstərmək istəmişdir.

Dünyanın estetik şəkildə gerçəkliyə uyğun olaraq qavranılması ən yüksək şəkildə bədii düşüncədə və incəsənət əsərlərində əks etdirilir. Bu cəhətdən bədii əsərin məzmun və janr həmahəngliyi, forma gözəlliyi də əsas şərtlərdən biridir. Estetika araşdırıcısı Yuri Borevin yazdığı kimi: *“İncəsənətin gözəlliyi həm forma kamilliyinin, həm də məzmunun dərinliyindədir”*[14]. Bu cəhətdən çağdaş dramaturgiyanın forma və məzmun vəhdətini ayrıca qeyd etmək lazım gəlir.

Ümumiyyətlə, çağdaş dramaturgiyanı janr poetikası

---

[13] Товстоногов, Г.А. Зеркало сцены 1/ Г.А. Товстоногов. – Ленинград: Искусство, –1980, –с. 123.

[14] Borev, Y. Estetika / Y.Borev. –Bakı:Təhsil, 2010. – s. 44.

baxımından aşağıdakı şəkildə təsnif etmək mümkündür: 1. Dram; 2. Faciə; 3. Komediya; 4. Tragikomediya; 5. Komik faciə; 6. Qrotesk; 7. Absurd; 8. Ekzotik komediya; 9. Fars; 10. Antikomediya; 12. Dram-xronika; 13. Kədərli komediya; 14. Dramatik komediya; 15. Xəyali, dramatik oyun; 16. Xəyali faciə; 17. İbrətamiz əhvalat; 18. Monodram; 19. Məzhəkə; 20. Lətifə; 21. Tarixi və müasir, mistik və real oyun; 22. Yarı mistik, yarı real oyun; 23. Melodram; 24. Teatral komediya; 25. Epataj komediya; və s.

Çağdaş dramaturgiyanın bu qədər zəngin janr müxtəlifliyindən istifadə etməsi, fikrimizcə, yeni janr axtarışları ilə bağlıdır, çünki adlarını sadaladığımız bu formalar hələ tam şəkildə özünü təsdiq etməyib. Bu bütün dövrlərdə, xüsusilə ictimai-siyasi proseslərin qabarıq olduğu mərhələdə baş vermiş, lakin bu janrların hamısı sonrakı mərhələyə adlamamışdır. Maraqlıdır ki, tədqiqatçı Arif Səfiyev "Azərbaycan dramaturgiyası müasir mərhələdə (1960-80-ci illər)" monoqrafiyasında bu tendensiyanı müşahidə edərək, *getdikcə dramaturji janrların artdığı və zənginləşdiyi fikrini irəli sürmüşdür*[15]. Bu nəzəri fikirlərdən çıxış edərək demək olar ki, 80-ci illərdən sonra dramaturgiyada ənənəvi sədlər dağıldığı kimi, yeni yaradıcılıq axtarışları kontekstində janr poetikası da zənginləşmişdir. Tədqiqatın I fəslinə aid müddəalar müəllifin bu məqalələrində öz əksini tapmışdır.[16]

Tədqiqatın **"Çağdaş dramaturgiyada cəmiyyət problemlərinin inikası"** adlı ikinci fəsli iki paraqrafdan ibarətdir. **"Sosial-mənəvi problemlərin təsviri"** adlı I paraqrafda cəmiyyətdəki sosial problemlərin dramaturji həlli araşdırılır. Qeyd edilir ki, bu məsələ sosrealizm dövrü dramaturgiyasında olduğundan tamamilə fərqli şəkildə həll edilir. Əslində, sosial

---

[15] Səfiyev, A. Azərbaycan dramaturgiyası müasir mərhələdə (1960-80-ci illər) / A.Səfiyev. –Bakı: Ozan, –1998. – 276 s.

[16] Məmmədova, İ. Azərbaycan dramaturgiyasının 90-cı illər mərhələsi //– Bakı: Filologiya məsələləri, – 2016. №10, –s. 323-327; Məmmədova, İ. Müstəqillik dövrü Azərbaycan dramaturgiyası yeni inkişaf mərhələsi kimi//–Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər, – 2019. №1, –s.35-39; Məmmədova, İ. Müstəqillik dövrü Azərbaycan dramaturgiyasının janr müxtəlifliyi//–Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, –2023. №1, – s.123-127.

problemlərin səhnəyə yol tapması həmişə mümkün olmuşdur, lakin bu və ya digər şəkildə bu problem sosrealizm mərhələsində bir qədər arxada qalmışdır. Cəmiyyətdəki problemlərin təsviri üçün isə ilk öncə yeni bədii həll tapmaq lazım gəlir. Elə bir bədii həll ki müasir tamaşaçını məşğul edə bilsin, düşündürsün, baxdığı tamaşada dövrün hadisələrini, onların mahiyyətini və fəlsəfəsini dərk etsin, ondan müəyyən nəticələr çıxara bilsin. A.P.Çexovun belə bir fikri yerinə düşür: *"Pyes üçün yeni sonluq tapan həm də yeni era açmış olur...mən sonluq tapmayınca pyesi yazmağa başlamıram"*[17]. Çağdaş dramaturgiyada bu cəhətdən müəyyən irəliləyiş vardır; belə ki, xüsusilə, nisbətən gənc dramaturqların əsərlərində sosial problemlərin qoyuluşuna və bədii həll problemlərinə daha tez-tez rast gəlmək olur.

Dramaturq Elçin dramaturji yaradıcılığa hələ ötən əsrin 70-ci illərinin əvvəllərində "Poçt şöbəsində xəyal" tragikomediyası ilə başlamışdır. Bu əsərində Elçinin təsvir etdiyi cəmiyyətlə insan bir-birinə uyğun gəlmirdi. Görünür, buna görə, bu əsərin səhnə taleyi yazıldığı dövrdə baş tutmadı. Cəmiyyətdəki tənhalıq və ondan xilas olma yollarının axtarılması ("Qatil"), öz mənindən imtina edən insanların dramı ("Cəhənnəm sakinləri"), insanın lirik-pataloji-psixoloji çırpıntılarının ictimai məzmunu ("Şekspir"), həyatda özünə yer tapa bilməyən insanların tragizmi ("Arılar arasında") və s. mənəvi-əxlaqi, ictimai, sosial problemlər Elçinin dramaturgiyasının əsas xüsusiyyətlərindəndir. Professor Nərgiz Paşayeva yazır: *"...Elçinin hər hansı bir qəhrəmanı yaşadığı mühitin əxlaqının, mənəviyyatının daşıyıcısı kimi diqqəti cəlb edir. O qəhrəman ya həmin mühitə tam layiqdir, ya da öz əxlaq və davranışları ilə o mühitə yaddır, yabançıdır*" [18]. Elçin personajları sanki Azərbaycan cəmiyyətinin bir politrasıdır, onu bütün zümrələri, problemləri və cizgiləri ilə əhatə edir. Professor Nizami Tağısoyun yazdığı kimi: *"Personajların dilinə belə münasibət həm*

[17] Чехов, А.П. Избранные / А.П. Чехов. –Москва: Сов. писатель, –Т. 14. –1978. – с. 388.

[18] Paşayeva, N. İnsan bədii tədqiq obyekti kimi (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında) /N.Paşayeva. – Bakı: XXI-YNE, – 2003. –s. 84.

*də xalqın psixoloji və eyni zamanda fərdi xüsusiyyətlərini oxucu (tamaşaçı) qarşısında nümayiş etdirmək, onu yaddaşa həkk etmək imkanı verir"*[19] .

Dramaturq Əli Əmirli sosial mühit probleminə başqa prizmadan baxmışdır. Sovet dövründə elmi konfranslarda çıxışlar edən professor Səyyadın milli azadlıq hərəkatı dövründə "Azadlıq" ailə təsərrüfatı yaradaraq öz qayğıları ilə məşğul olması ("Onun iki qabırğası"), maddi güzəran ucbatından elmi işini yarımçıq qoyan alim Sarı Qarayevin ailəsinin simasında dövrün iqtisadi çətinliklərinin doğurduğu mənəvi deqradasiyalar ("Varlı qadın"), Qarabağ savaşına getməmək üçün oğluna qız paltarı geydirərək komik vəziyyətlərə düşən Zərlinskilər ailəsi ("Bala, başa bəla"), övladlarına Hamlet və Ofeliya adını verən Otellonun keçid dövründə çətin vəziyyətə düşməsini ("İyirmi ildən sonra") təsvir etməklə dramaturq Əli Əmirli dövrün mürəkkəb psixoloji portretini yaratmağa nail olur.

Problemi, hadisəni fərqli rakursdan işıqlandıran Afaq Məsudun "Can üstə", "O məni sevir", Kamal Abdullanın "Kim dedi ki, Simurq quşu var imiş!", "Hərdən mənə mələk də deyirlər", "Ruh", "Yağışlı gecələr", Natiq Rəsulzadənin "Nonsens", Firuz Mustafanın "Tıxac", "Əqrəb bürcü", Elçin Hüseynbəylinin "Labirint", "İki nəfər üçün oyun", "Axırı sakitlikdir" və s. əsərlərində müasir dünyanın sosial problemlərinə yeni baxış ifadə olunur.

Dramaturq Vaqif Səmədoğlu "Yayda qartopu oyunu", "İntihar", "Mamoy kişinin yuxuları", "Generalın son əmri", "Yumurta" əsərlərində cəmiyyətdəki ictimai-siyasi problemləri, hərc-mərcliyi və eybəcərlikləri gülüş hədəfi edirdi. Onun qəhrəmanları çox zaman cəmiyyətdəki normativ düşüncədən kənara çıxırlar. Əslində onun qəhrəmanları pis adamlar deyillər, komediyanın da əsas məqsədi elə budur. Aristotelin yazdığı kimi: *"Komediya, dediyimiz kimi, pis adamların əks etdirilməsidir, amma*

---

[19] Tağısoy, N. Elçin yaradıcılığı: görünən və görünməyən tərəflər // 525-ci qəzet.–2009, 15 aprel. – s. 7.

*bunu da tam qəbahət mənasında yox, o mənada başa düşmək lazımdır ki, gülməli özü də eybəcərliyin bir hissəsidir...”*[20].

Ümumiyyətlə, çağdaş dramaturgiyada sosial-mənəvi, ictimai problemlərin bədii həlli başlıca yerlərdən birini tutur. Fikrimizcə, dramaturqlar bu problemlərin təsvirinə yetərincə nail olmuşlar.

Bu fəslin “**İnsan və cəmiyyət problemi yeni dramaturji həll kontekstində”** adlı II paraqrafında insan və cəmiyyət problemi tədqiq edilir. Belə ki, postsovet dövrünün ilk illərində İlyas Əfəndiyev erası bitdikdən sonra səhnəyə yeni dramaturqlar nəsli çıxır. Elçin, Firuz Mustafa, Əli Əmirli, Ağarəhim Rəhimov, Hüseynbala Mirələmov, Aygün Həsənoğlu, Kamal Abdulla, Hidayət Orucov, Əjdər Ol, Elçin Hüseynbəyli və başqalarının dramaturgiya yaradıcılığı məhz bu dövrə düşür və bu dramaturqların hər birinin yaradıcılığında insan və cəmiyyət problemi başlıca yer tutur.

Elçinin “Arılar arasında” bir az kədərli komediyasının əsasında da insan və cəmiyyət, eləcə də həyatın, mühitin sosial problemləri qoyulur. Dramaturq cəmiyyətdəki mövcud münasibətə alternativ olaraq arılar cəmiyyətini əsas götürür.

Firuz Mustafanın çoxsaylı müxtəlif janrlı dramaturji əsərlərinin əsas mövzusu da cəmiyyət hadisələridir. Dramaturq “Adsız”, “Alın yazısı”, “Əqrəb bürcü”, “Su pərisi”, “Ayı təbəssümü”, “Tıxac” və s. əsərlərində cəmiyyət hadisələrinin dərinliklərinə enir, ən adi hadisələr fonunda cəmiyyətdəki problemləri bütün çılpaqlığı ilə tamaşaçıya çatdırır.

90-cı illərdən başlayan yeni cəmiyyət quruculuğu ayrı-ayrı dramaturqların əsərlərində fərqli şəkildə əks olunmuşdur. Ağarəhim Rəhimovun bu dövrdə yazdığı “Əsgər anası” pyesində də əvvəlki əsərlərində olduğu kimi, müharibə, cəmiyyət və məhkəmə triadası davam edir. Bu atributlar dramaturqun bir çox əsərlərində təkrarlanır, lakin heç vaxt bir-birini təkrar etmir, əksinə müəllif cəmiyyətin ən dərin qatlarına enir. Bu əsərdə də müharibə gedən ölkənin həyatındakı ziddiyyətlər, anomaliyalar fabulanın əsasına

---

[20] Aristotel, Poetika (Poeziya sənəti haqqında) / Aristotel. Tərcümə, məqalələr və şərhlər A.Aslanovundur. – Bakı: Şərq-Qərb, –2006. –s.29.

qoyulur. İki oğlunu (Şirzad və Şubay) müharibədə itirən ananın faciəsi göstərilir. Lakin dramaturq ananın faciəsini heç də iki oğlunu itirməsində yox, üçüncü oğlu Şəkərdən aldığı mənəvi-əxlaqi zərbələrdə görür və bunu əsaslandırmağa çalışır. Əsərin əsas ideyasını məhz bu kimi sosial-psixoloji hadisələr təşkil edir. Tədqiqatçı B.Əhmədli məhz əsərin alt qatında duran bu ideyanı nəzərdə tutaraq yazır: *"Hadisələrin psixoloji aspektdən təsvirinin ağırlığı onun janrını da müəyyənləşdirmiş olur. Bu baxımdan pyesin janrında aparıcı yeri psixologizm tutur"*[21]. Professor Nizami Məmmədov da çox doğru olaraq *"Əsgər anası" pyesinin janrını "ictimai-psixoloji dram" kimi müəyyənləşdirməsi*[22] –, qənaətinə gəlməkdə tamamilə haqlıdır. A.Rəhimov dramaturgiyasının ən başlıca cəhətlərindən biri həyat həqiqətinə sadiq qalması, problemin ictimai köklərinə, dərinliklərinə getməsi və maarifçilik funksiyasını yerinə yetirməsidir.

Dramaturq Afaq Məsudun dramaturgiyasında da cəmiyyət və insan problemi başlıca yer tutur. Nəzmiyyə Axundova A.Məsud yaradıcılığındakı bu xüsusiyyəti doğru müəyyənləşdirir: *"...ailə də cəmiyyətin tərkib hissəsidir və burada baş verən olaylar cəmiyyətdəki hadisələrin, mənəvi-əxlaqi proseslərin əks-sədasıdır"*[23]. "Can üstə" pyesində sovet dövründə dövlət qulluğunda olan bir qocanın üzücü canvermə prosesi təsvir olunur və bu, Qocanın təmsil etdiyi dövrün canverməsi kimi mənalanır. Müəllifin fərdi üslubunda keçmiş, bu gün və gələcək geniş yer tutur və bu zaman konteksində baş verən hadisələri bir nöqtədə birləşdirməyi bacarır. Psixologizmin sənət ekvivalentlərindən biri sayılan sürrealizmin teatr sahəsindəki banisi Antonen Arto bu cür dramaturji mətnləri nəzərdə tutaraq yazırdı: *"Bizim üçün teatrın ibarət olduğu söz və mətn başqa imkanları məhdudlaşdırdığından onu ədəbiyyatın bir səhnəsinə, özünəməxsus səs variantına*

---

[21] Əhmədli, B. Dramaturq: sənət və həqiqət (A.Rəhimov dramaturgiyasında poetika məsələləri). / B.Əhmədli. – Bakı: BQU, – 2011. –s. 89.

[22] Məmmədov, N. Nəsrin axarı: zaman və məkan konteksti / N.Məmmədov. –Bakı: BQU, –2008, – s. 124.

[23] Axundova, N. Afaq Məsud (ədəbi portret) // –Bakı: Azərbaycan, –2013. №11, – s. 184.

*çevirmişdir. Odur ki, biz nə qədər çalışsaq da, oxunan və ifa olunan mətni fərqləndirsək də, mövcud teatr realizmə olan mətndən ibarətdir”*[24].

Bu dövrdə yaranan dramaturji mətnlərdə cəmiyyət hadisələri detallarına qədər təhlil edilir və psixoloji, ictimai yöndə təhlilə cəlb olunur. Tədqiqatın II fəslinə aid müddəalar müəllifin bu məqalələrində öz əksini tapmışdır.[25]

Tədqiqatın III fəsli **“Çağdaş dramaturgiyada tarixilik və postmodernizm**” adlanır. Bu fəslin “**Dramaturgiyada tarixilik və müasirlik problemi”** adlı paraqrafında dramaturgiyadakı tarixi mövzuda yazılan əsərlərdə tarixiliklə müasirliyin vəhdəti araşdırılır. Belə ki, müstəqillik dövründə tarixi qəhrəmanlar və hadisələr yenidən bədii əsərlərin əsas problematikasına çevrilməyə başladı. Azərbaycan dramaturgiyasının çağdaş dövründə tarixi mövzuda yazılan dram əsərlərini, əsasən, iki yerə bölmək olar:

1. Azərbaycanın tarixi və ədəbi şəxsiyyətlərinə həsr edilmiş dramlar (İ.Əfəndiyev “Hökmdar və qızı”, Ə.Əmirli “Mesenat”, “Ağa Məhəmməd şah Qacar”, H.Mirələmov “Pənah xan Cavanşir” və s. );
2. Tarixi hadisələrə həsr edilmiş dramlar (İ.Əfəndiyev “Sevgililərin cəhənnəmdə vüsalı”, B.Vahabzadə “Özümüzü kəsən qılınc”, H.Mirələmov “Gəncə qapıları” və s.).

Bu dövrdə İlyas Əfəndiyev “Sevgililərin cəhənnəmdə vüsalı”, “Dəlilər və ağıllılar”, “Tənha iydə ağacı”, “Hökmdar və qızı” əsərlərini yazaraq bu ədəbi növə axıradək sadiq qaldığını bir daha sübut edir və bu illərdə teatr estetikasını bir qədər də zənginləşdirir. Bu əsərlərdən ikisi “Hökmdar və qızı”, “Sevgililərin cəhənnəmdə vüsalı” pyesləri tarixi mövzuda yazılsa da, dramaturqun yaşadığı zamanla tam səsləşir. Müstəqillik həm də tarixə müstəqil baxışa imkan yaradır və bu imkandan müəllif yetərincə bəhrələnməyə

[24]Арто, А. Театр и его двойник / А. Арто. –Москва, –1993. – с. 73.

[25] Məmmədova, İ. Çağdaş dramaturgiyada monodram janrı və onun xüsusiyyətləri (F.Mustafanın yaradıcılığı əsasında) //– Bakı: Bakı Slavyan Universiteti, Elmi Əsərlər, Dil və ədəbiyyat seriyası, – 2019. №1 – s.257-262; Məmmədova, İ. Çağdaş dramaturgiyada sosial-mənəvi problemlərin təsviri// –Bakı: Filologiya məsələləri, – 2017. №8, –s.395-403.

çalışır. "Hökmdar və qızı" dramında bu gün Azərbaycan xalqının üzləşdiyi problemin səbəblərinə baş vurulur.

Bədii əsərin tədqiq predmetinə çevrilən mövzulardan biri də 1937-ci ilin "ağ ləkə"ləridir. Sovet rejiminin repressiya siyasi aksiyası son illərdə bədii düşüncədə də öz əksini tapmışdır. Bu mənada İ.Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı"faciəsində bu dəhşətlər özünəməxsus şəkildə dramaturji tədqiq obyekti olur.

Dramaturgiyaya sovet dövründə gələn Bəxtiyar Vahabzadənin "Dar ağacı", "Cəzasız günah", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Atamın kitabı", "Fəryad", "Yağışdan sonra", "Yollara iz düşür", "Rəqabət" əsərləri çağdaş dramaturgiyanı bir qədər də zənginləşdirir. "Özümüzü kəsən qılınc" dramının müsbət qütbünü təşkil edən obrazlar içərisində Gur-Şad başlıca yer tutur. Elə buna görə də onu müəllif ideallarının ifadəçisi hesab etmək olar. Onun dediyi sözlər də dövlətçilik təfəkkürünün ifadəsi olaraq mənalanır: *"Mənim üçün dövlətin başında kimin durması vacib deyil. Dövlətin özü vacibdir!"*[26].

Dramaturq Elçinin aktyor Hüseyn Ərəblinskinin həyatından bəhs edən "Sənətkarın taleyi" dramı da tarixilik və müasirlik baxımından olduqca maraqlıdır. Elçin əsərə remarka əvəzi annotasiyasında yazır: "*Hüseyn Ərəblinski (1881-1919) faciəli bir həyat yaşamış böyük Azərbaycan aktyoru, rejissoru, teatr xadimidir. Ancaq bu pyes sırf bioqrafik əsər deyil. Bu, Ərəblinski sənətinə, onun simasında teatra hörmət və məhəbbətin ifadəsidir"*[27]. Ərəblinskinin yeni teatr uğrunda apardığı şəxsi və ictimai mübarizəsi və uğrunda can verməsi dramaturji əsər üçün geniş material verirdi. Teatrşünas M.Əlizadənin əsərə qiymətində də məhz bu amil nəzərdə tutulur: *"Pyesdə yaradıcılığı 1914-1919-cu illəri ehtiva edən aktyor H.Ərəblinski obrazı yenicə yaranan peşəkar Azərbaycan teatrının inkişafı və tarixi yasaqların, sosial ədalətsizliyin məhv edilməsi uğrunda apardığı şəxsi və ictimai mübarizənin həm qurbanına, həm də faciəvi qəhrəmanına*

[26] Vahabzadə, B. Özümüzü kəsən qılınc ("Göytürklər") // Bakı:Azərbaycan. –1998. – №7. –s.76.
[27] Elçin. Pyeslər / Elçin. – Bakı: Çaşıoğlu, –2012. – s. 756.

*çevrilir"*[28].

Dramaturq Əli Əmirlinin on beş pyesindən ikisi məhz tarixi mövzudadır. Onun "Mesenat" və "Ağa Məhəmməd şah Qacar" dramları janrın mövzu və problematikasını bir qədər də genişləndirir. Hər iki pyes mövzunun aktuallığı və müasirliyi ilə fərqlənir.

Tarixi mövzuya yazıçı Kamal Abdulla da müraciət etmişdir, lakin onun bu müraciəti daha çox postmodern üslubda özünü göstərmişdir. Yazıçının yaradıcılığının əsas xüsusiyyətlərindən biri hər hansı bir mövzunu müxtəlif janrlarda işləmək və yeni interpretasiyalar etməkdir. Şah İsmayılın şəxsiyyətinə, yaxud Şah və Şair obrazına K.Abdulla həm şeirlərində, həm bədii nəsrində, həm də dramaturgiyasında toxunur. Bu cəhətdən onun "Şah İsmayıl, yaxud hamı səni sevənlər burdadı..." dramını nümunə göstərmək olar. Daha sonra isə bu tamaşanın əsasında "Şah və Şair" pyesini yazır. Hər iki əsərdə qoyulan problemlər bizə K.Abdullanın "Yarımçıq əlyazma" romanından da tanışdır. Bununla dramaturq tarixi reallıqları görümlü edərək ona səhnə həyatı verməyə çalışmışdır. Lakin görkəmli dramaturq bu əsərlərində tarixi hadisələrin xronikasından daha çox hadisələrin mahiyyətini və fəlsəfəsini açmağa yönəlir. Bu cəhətdən K.Abdullanın tarixi mövzunu səhnəyə gətirməsində bir özünəməxsusluq var. Tənqidçi R.Əliyevin fikirləri ilə desək *"Kamal Abdulla teatr üçün asan müəllif deyil. Onun dramlarında zahiri hərəkət az, daxili dram isə çoxdur"*[29].

Sonuncu fəslin **"Çağdaş dramaturgiyada modernist və postmodernist meyillər"** adlı sonuncu paraqrafında dramaturgiyada yeni təmayüllər, xüsusilə postmodernist meyillər araşdırırılır. Professor Qorxmaz Quliyev *postmodernizmi tarixilikdən və determinizmdən imtinanı ən səciyyəvi xüsusiyyət*

---

[28] Əlizadə, M. Elçin fenomeninin Azərbaycan milli teatr prosesinə təsiri (Ön söz əvəzi). Elçin. Pyeslər/ M.Əlizadə. – Bakı: Çaşıoğlu, – 2012. –s.23.

[29] Əliyev, R. "Şah və Şair" tamaşası haqqında // Ədəbiyyat qəzeti. – 28 iyun, 2013. – s. 5.

*hesab edir*[30]. Hətta postmodernizm modernizmin əsasında duran bir çox məsələləri inkar etməyə qədər gedib çıxır. Postmodernizm estetikasını təhlil edən İrina Nikitina isə yazır: *"Sənətdə şərtiliklərlə oynayan postmodernist sənətkar həqiqət və yalan arasındakı hüdudu aradan qaldırır. Postmodernistlər sənətkarı təkcə bütövlük yox, həm də fərdilikdən, onun işini isə ortaya daim nəsə yeni və dərin şey qoyan mötəbər sənət əsəri statusundan məhrum edirlər"*[31].

Elçin 90-cı illərdən, sosrealizmin artıq mövcud olmadığı bir zamandan başlayaraq yaradıcılığında absurd mətnlərə geniş yer verərək "Mehmanxana nömrəsində görüş", "Hövsan soğanı", "Xüsusi sifariş", "Qisas", "Su" kimi absurd pyeslərini yazmışdır. Doğrudur, Elçin "Dramaturgiyada şərtilik barədə" məqaləsini yazarkən hələ dramaturji yaradıcılığa başlamamışdı, lakin bir tənqidçi kimi dramaturgiya sahəsində yeni meyillərin inkişafının zəruriliyini ilk dərk edənlərdən biri kimi onun haqqında söhbət açmağı lazım bilmişdir. Dramaturq Ejen İoneskonun absurd mətni "Keçəl müğənni qız" əsərini tərcümə edərkən məhz həmin məqaləni xatırlayaraq yazır: "...bu günlərdə Ejen İoneskonun məşhur "Keçəl müğənni qız" pyesini tərcümə edib bitirdikdən sonra, qəribədir, birdən-birə həmin məqalə yadıma düşdü, onu yenidən nəzərdən keçirdim. Məqalədə Jan Anuy, Fridrix Dürrenmatt, Edvard Olbi və s. kimi *XX əsr dramaturqlarının pyesləri əsas götürülür və onların timsalında bədii şərtiliyin ədəbiyyatda və konkret olaraq, dramaturgiyada estetik bir stimul kimi necə mühüm rol oynadığı göstərilir*[32].Teatr tənqidçisi Məryəm Əlizadə doğru qeyd edir ki, Elçin dramaturgiyası *həm öz problematikasına, həm də strukturuna görə tamaşaçıya çox yaxındır*[33]. "Hövsan soğanı" absurd pyesi də məhz bu xüsusiyyətlərə malikdir.

Absurd dramaturji mətn və onun əsasında yaranan absurd

---

[30] Quliyev, Q. Postmodernizm // Tənqid.net. –2008, № 5. –s. 7-30.

[31]Nikitina, İ. Postmodernist sənət // –Bakı: Azərbaycan, – 2009. №4, –s. 174.

[32] Elçin. Mənəvi faciənin ifadəsi: Ejen İonesko və onun "Absurd teatr"ı // Ədəbiyyat qəzeti. – 24 dekabr, 2016. –s. 16.

[33] Əlizadə, M. Əlahəzrət teatrın tərənnümçüsü // Bakı: Tənqid.net. –2013. №10. –s. 318.

teatr çağdaş dramaturgiyanın yeni inkişaf meyillərindəndir. Absurd teatr əlamətləri Afaq Məsudun, Kamal Abdullanın bəzi pyesləri üçün də xarakterikdir. K.Abdullanın "Pis oğlan", "Ruh", "Elə bil qorxa-qorxa", "Yağışlı gecələr", A.Məsudun "Qatarın altına atılan qadın", "O məni sevir", "Can üstə" pyesləri bütünlüklə absurd dramaturji mətn olmasa da, bu əsərlərdə bir-birilə əlaqəsiz hadisələr, tez-tez dəyişən səhnə və fikirlər başlıca yer tutur. Hər iki dramaturqun mətnlərində səhnə, giriş-çıxış, hadisələrin sıra ilə düzülüşü, əsərin düyün və açılma nöqtəsinə o qədər də önəm verilmir və gözlənilmir.

Afaq Məsud dramaturgiyasında qeyri-müəyyənlik modernist dərkin yeni təzahür formaları kimi meydana çıxır. Onun dramaturji mətnləri üçün çoxmənalılıq səciyyəvidir. Həm də K.Abdullada olduğu kimi, onun dramaturji mətnlərində də bir oyun funksiyası, intertekstuallıq başlıca yer tutur. İntertekstuallıq postmodernizmin əsas prinsiplərindən biri kimi müstəqillik dövrü dramaturgiyasında da əksini tapır. Tənqidçi Cavanşir Yusiflinin yazdığı kimi: *"Postmdernist fəlsəfənin xarakteristikaları arasında hər bir ayrıca mətnin həmişə müxtəlif səviyyələrdə bütün digər mətnləri içinə alan intertekst kimi mövcud olmasını təsdiqləyən intertekstuallıqdır"*[34]. Akademik Nizami Cəfərov "Afaq Məsud dünyası" monoqrafiyasında müəllifin *dram əsərlərini modernist mövqedən qiymətləndirir*[35]. Afaq Məsudun "O məni sevir" adlı iki hissəli qurtuluş cəhdi psixologizm və oyun üzərində qurulmuşdur. Bunu nəzərdə tutan teatrşünas A.Dadaşov yazır: "*...psixologizmin nəsrimizdə bərqərar olmasında müstəsna əməyə malik müəllifin peşəkar üslubu onun dramaturgiya sahəsindəki ilk qələm təcrübəsinə qalib gəlməyə bilmir"*[36]. A.Məsud bədii yaradıcılığında milli modernizm əlamətləri görən tənqidçi Tehran Əlişanoğlunun isə "*Bu yerdə dünya ədəbiyyatı və milli modernizm hadisəsi, konkret*

[34] Yusifli, C. Postmodernizm: həssaslıqdan şüursuzluğa, yaxud ikiqat kodlaşdırma // Tənqid.net. – 2010, №7 – s. 285.

[35] Cəfərov, N. Afaq Məsud dünyası / N.Cəfərov. –Bakı: Elm və təhsil, – 2016. – 179 s.

[36] Dadaşov, A. Çağdaş Azərbaycan dramaturgiyası / A.Dadaşov. –Bakı: Elm və təhsil, –2012. –s. 134.

*halda Afaq Məsud münasibətlərindən..."*[37] danışması təbiidir. Tədqiqatın III fəslinə aid müddəalar müəllifin bu məqalələrində öz əksini tapmışdır.[38]

Dissertasiya işinin **Nəticə** hissəsində elmi-nəzəri qənaətlər ümumiləşdirilir:

–Yeni dövrdə zəngin bir inkişaf yolu keçən çağdaş dramaturgiya mövzu, problematika, janr, struktur, konfilikt cəhətdən inkişaf edərək yeni bir mərhələyə daxil olur;

—Milli dramaturgiyanın heç bir mərhələsində dramaturgiya janr poetikası baxımından bu qədər zəngin və çoxşaxəli olmamışdır. Bu mərhələdə qrotesk, komik faciə, absurd, ekzotik komediya, antikomediya, dram-xronika, dramatikkomediya, xəyali-dramatik oyun, monodram, məzhəkə, lətifə, tarixi və müasir, mistik və real oyun, melodram, yarımistik, yarı real oyun, teatral komediya, epataj komediya və s. janr və formalardan istifadə edilmişdir;

– Azərbaycan dramaturgiyası dünya dramaturgiyası və teatrına bir qədər də yaxınlaşır. Əgər əvvələr teatrlarımız ümumittifaq miqyasından çıxa bilmirdisə, çağdaş dövrdə Türkiyə və Avropa ölkələrini də əhatə edir;

–Dramaturji mətn teatrallaşır, yəni dramaturji mətnlər sırf teatr üçün yazılır;

–Sovet dönəmində dramaturji mətnlər nadir hallarda ədəbi jurnallarda dərc edilirdi, müstəqillik dövründə isə bu mətnlər ədəbi jurnallarda və kitablarda dərc olunurdu.

–Dramaturgiyada tarixi mövzular başlıca yer tutur. Bunun bir səbəbi, ümumiyyətlə, tarixi mövzunun Azərbaycan dramaturgiyasında müəyyən bir ənənəsi olmasından irəli gəlirdisə, digər səbəbi yeni dövrdə tarixə, keçmişimizə marağın artmasıdır.

---

[37] Əlişanoğlu, T. Milli modernizm ədəbiyyatının gəlişməsində Afaq Məsudun rolu // 525-ci qəzet. – 2017, 24 iyun. – s.14.

[38] Məmmədova, İ. Bəxtiyar Vahabzadənin dramaturgiyasında tarixilik problemi // –Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2018. №1(105) –s. 230-233; Məmmədova, İ. Afaq Məsud dramaturgiyasında psixologizm və sosial problemlər//– Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2017. № 1(101),– s.191-193; Мамедова, И. Постмодернисткие тенденчие в современной драматургии // –Киев: Язык и култура, –2017. №9, –с. 243-248.

–Dramaturgiyada cəmiyyət hadisələrinə və sosial problemlərin bədii həllinə daha geniş yer verilir, hadisələrin psixoloji qatlarına enilir. Bu psixoloji qatlar dram əsərlərinin konfliktini müəyyən edir, klassik konfliktə yeni əlamətlər əlavə olunur;

–Çağdaş dramaturji mətnlərdə remarkaların funksionallığı artır;

–Çağdaş dramaturgiyada modernist və postmodernist əlamətli dramaturji əsərlər də yazılır. Bu əsərlər bütünlüklə postmodernist düşüncəni əks etdirməsə də, ilk nümunələr kimi dramaturgiyamızı zənginləşdirir. Hələ dramaturgiyada postmodernizm bütün strukturlarda tam olaraq oturuşmasa da, müəyyən komponentlərdə ifadə olunur.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır**

1. Azərbaycan dramaturgiyasının 90-cı illər mərhələsi //– Bakı: Filologiya məsələləri, – 2016. №10, –s. 323-327.
2. Afaq Məsud dramaturgiyasında psixologizm və sosial problemlər//– Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2017. № 1(101) ,– s. 191-193.
3. Çağdaş dramaturgiyada sosial-mənəvi problemlərin təsviri// –Bakı: Filologiya məsələləri, – 2017. №8, –s. 395-403.
4. Постмодернисткие тенденчие в современной драматургии // –Киев: Язык и култура, –2017. №V (185), –с. 243-248.
5. Проблема человека и общества в контексте нового драматургического решения // Образование, наука и культура Кавказа: традиции и современность,– Назрань: Ингушский научно-исследовательский институт, 07 феврал, –2017. – с. 223-227.
6. Dünya Savaşının Hüseyn Cavidin "İblis" əserine yansıması//100. yılında I. Dünya Savaşı`nın Hukuki ve tarihi Yönleri Uluslararası Sempzoyumu (Alman-Fransız penceresi), İstanbul: İstanbul Universiteti, 07 aralık, 2017.
7. Bəxtiyar Vahabzadənin dramaturgiyasında tarixilik problemi // –Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2018. №1(105) –s. 230-233.
8. Müstəqillik dövrü Azərbaycan dramaturgiyası yeni inkişaf mərhələsi kimi//–Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər, – 2019. №1, –s.35- 39.
9. Müstəqillik dövrü Azərbaycan dramaturgiyası yeni inkişaf mərhələsi kimi//–Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər, – 2019. №1, –s.35- 39.
10. Çağdaş dramaturgiyada monodram janrı və onun xüsusiyyətləri (F.Mustafanın yaradıcılığı əsasında) //– Bakı: Bakı Slavyan Universiteti, Elmi Əsərlər, Dil və ədəbiyyat seriyası, – 2019. №1 – s.257-262.

11. Çağdaş dramaturgiyamızın janr müxtəlifliyi // Humanitar elmlər: dünən, bu gün və sabah tələbə elmi konfransı, – Bakı: Xəzər Universiteti, 28.02.2020, s.198-200.
12. Elçin dramaturgiyasında absurd dramlar// Gənc tədqiqatçıların VI elmi konfransı, – Bakı: Azərbaycan Universiteti, 10 mart, – 2023, – s.161-162.
13. Müstəqillik dövrü Azərbaycan dramaturgiyasının janr müxtəlifliyi//–Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, –2023. №1, – s.123-127.
14. Modern individual's position in the new society in contemproray Azerbaijani drama //4 th İnternational Azerbaijan Congress on Humanities and social Sciences, – Bakı: Sosial Tədqiqatlar Mərkəzi, 15-18 sentyabr, – 2023, – s.672-674.
15. Contemporary Azerbaijani dramas in Turkish theatres and media//Biltek-VIII İnternational Symposium on Current Devolepments in science, technology and social science, – Paris. 24-26, october, – 2023, –s. 48.
16. Dramaturgiyada tarixilik və müasirlik problemi //– Alma-Ata: Endless Light in Science, –2024. №1, – s. 331-336.



Dissertasiya işinin müdafiəsi 27 fevral 2024-cü il tarixində saat 15⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Azərbaycan Respublikası, Bakı ş., Hüseyn Cavid prospekti, 117, Akademiya şəhərciyi, Əsas bina, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı, IV mərtəbə

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avroreferat 24 yanvar 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.12.2023

Kağızın formatı: A5

Həcm: 38985

Tiraj: 100